# Uca zirvələri fəth edənlər...

## Beynəlxalq Alpinizm Günüdür

Çoxları onları dünyanın ən xoşbəxtləri sayır - insan ayağı dəyməyən yerlərə, uca zirvələrə qalxmaq hər kəsə nəsib olmur. Amma bu məziyyətlərin sırasına onların çəkdikləri əziyyəti əlavə etsək, bunun heç də həmişə zövqlü və asan olmadığı qənaətinə gələrik. Söhbət alpinistlərdən gedir...

Birdən birə alpinist olmaq mümkün deyil. Əvvəlcə uzun müddət inadla məşq etmək, marşrutları bilmək, kiçik zirvələrdən başlayıb get-gedə daha uca zirvələrə qalxmağı öyrənmək lazımdır. Yalnız bunlardan sonra ən uca zirvələri fəth etmək olar. Dağlarda bədbəxt hadisə baş verən zaman ən müasir vertolyotlar, avtomobillər, heç bir texnika köməyə gedə bilməyəndə yalnız alpinistlər bu çətin işin öhdəsindən gəlirlər. Onları ölüm təhlükəsi gözləsə də, həmişə dara düşən adamın köməyinə tələsirlər.

Alpinistlərin xüsusi ləvazimatı var: küləkdən, yağışdan və qardan qorunmaq üçün xüsusi geyim, altı dişli ayaqqabı, buz baltası, ayaqqabılara bərkidilmiş xüsusi qırmaqlar, qayalara və buzluqlara keçirilən qırmaqlar, çəkiclər, çadırlar, yataq kisələri və başqa aksessuarlar. Onlar insan ayağı dəyməyən yerlərdən keçirlər. Dağlarda bədbəxt hadisə baş verən zaman ən müasir vertolyotlar, avtomobillər, heç bir texnika köməyə gedə bilməyəndə yalnız həmin şəxslər bu çətin işin öhdəsindən gəlirlər. Ölüm təhlükəsi olsa da, həmişə dara düşən insanların köməyinə tələsirlər.

### Tarixi

1786-cı il avqustun 8-də iki nəfər isveçrəli- həkim Mişel Qabriel Pakkard və dağ bələdçisi Jak Balm Alp dağlarındakı Monblan zirvəsinə qalxıb. Məhz bu tarix dünyada Beynəlxalq Alpinizm Günü və ya Alpinist Günü kimi qeyd olunur. O vaxtdan uca zirvələrə qalxmağı alpinizm adlandırmağa başladılar.

### İdman, yoxsa hobbi?

Əslində, bir çoxları alpinizmi idman adlandırmaq istəmir, ancaq burada fiziki cəhətdən güclü və səbirli idmançılar toplaşırlar. Yalnız cəsur, dözümlü və igid adamlar sərt küləkdə, 30 dərəcə şaxtada dağların hər saniyə uça bilən bağlanmış çıxıntılarından, yumşaq qarla örtülü təhlükəli yamaclarından keçə bilər. 18-19-cu əsrlərdə avropalı varlı təbəqənin boş vaxtlarını qiymətləndirmək və stabil keçən həyatlarını yeni macəralarla bəzəmə nəticəsində bir idman növü sayılmağa başlayan alpinizm, 20-ci əsrin əvvəllərində başqa xalqların da maraq dairəsini əhatə etməyə başladı. Beynəlxalq bir idman növünə çevrilməsi isə, 1931-ci ildə mərkəzi Cenevrədə olan Beynəlxalq Alpinistlər Birliyinin (UİAA) yaradılması ilə mümkün oldu. Növbəti illərdə müəyyən texniki və təhlükəsizlik üsullarının inkişaf etdirilməsi ilə özünə xas intizamı və qanunları olan bir idman budağı halına çevrilən alpinistlik, bir çox təbiət idmanının da önünü açdı.





### Elmi araşdırmalar zamanı...

Alpinistlər çox vaxt idman məqsədi ilə zirvəyə qalxarkən elmi araşdırmalar da aparırlar. Onlar uca dağ metrostansiyalarında işləyir, dağlarda su-elektrik stansiyalarının tikintisində iştirak edir, 7 min metr hündürlükdə müxtəlif aparatlar yerləşdirirlər.

Beynəlxalq Alpinizm Günü sərhəd tanımır, kişiləri və ruhən möhkəm qadınları birləşdirir. Yüksəklikləri fəth edənlər Alpinizm günündə görüşlər keçirir, təcrübə mübadiləsi aparır, yeni rekordlar müəyyən edir, təsirli tamaşalar göstərirlər. Dünyanın bəzi şəhərlərində idman klubları həmin gün yarışlar, konsertlər və digər bayram tədbirləri təşkil edirlər.

Beləliklə, 8 avqustu yalnız dağ zirvələrini fəth edənlər deyil, həm də sənaye alpinizmi ilə məşğul olanlar öz bayramları hesab edirlər. Məlumdur ki, dünyada hər il göydələnlərin, hündürmərtəbəli binaların sayı artır. Belə mütəxəssislər binaların fasadlarını və pəncərələrini yuyur, rəngləyir, təmir edir, qardan və sırsıradan təmizləyir, kondisionerləri montaj edirlər.

*Yeganə BAYRAMOVA*

Yeni Azərbaycan.- 2025.- 8 avqust, №138.- S.8.